**UOT 82**

**NİGAR ŞAHKƏRƏMOVA ***

# “GENERALIN ZAMANLA SÖZÜ” VƏ “YUMURTANIN OYANIŞI”

*Vaqif Səmədoğlu pyesi ilə dramaturgiyaya yeni həyat verdi. Müəllif Azərbaycanın reallığını göstərməyə çalışırdı. Biz başqa nöqteyi-nəzərdən baş vermiş hadisələrin şahidi olduq. "Generalın son komandanlığı" pyesində tarixin qaranlıq səhifələrində gizlənmiş cinayətlər, bir neçə dekadadan sonra törədilən günahlara görə cəzanın əks olunmasıdır. Bəlaların yaratdığı fəlakətlər son nəticədə cəmiyyəti pozur və tükəndirir.*

*Baxmayaraq ki, "Yumurta" tamaşası komik elementlərlə bəzədilib, amma təəssüf etməyə çox şey var. Cəmiyyət və insanlar həmişə tamaşada baş verənləri düşünməlidirlər.*

*Laqeydlik hər birimizi baş verənləri görməməzliyə vurmağa vadar etdi. Bunun nəticəsi cəmiyyəti hər zaman narahat edəcək və çıxılmaz vəziyyətə gətirəcəkdir.*

**Açar sözlər:** *Vaqif Səmədoğlu, general, həyat, qorxu, oyanış, yumurta*

Vaqif Səmədoğlu Azərbaycan dramaturgiyasında özündən əvvəlki və müasiri olduğu ədiblərin yaradıcılığından fərqli bir rakursa malik əsərlər müəllifi olaraq görünməkdədir. Müşahidələr deməyə əsas verir ki, Vaqif Səmədoğlu cəmiyyətdə baş verən hadisə və katalizmlərə öz yanaşma metodu, görmə rakursu olan bir sənətkardır. Bu novator sənətkar yaratdığı poeziya və dramaturgiyası ilə sözdə, niyyətdə, yazıda çox azad bir ədib olduğunu təsdiqləyir.

Vaqif Səmədoğlu dramaturgiyası həm oxucu, həm də tamaşaçı sevgisini qazana bilmişdi. “Generalın son əmri” pyesi maraqlı süjet xətti ilə seçilən əsər oldu. Bəlkə də Vaqif Səmədoğlu məhz bu əsərin ikinci dəfə səhnə həyatının sağlığında yaşamasını istədi.

Mən “Generalın son əmri”ni niyə yazdım? İki nəslin arasındakı antoqonizmdən, konfliklərdən söz açmışam. Bu, insan təbiətində, cəmiyyətin içində gedən əbədi çarpışmadı. Bunu nəsillərin konflikti kimi versəm də, dərinə gedəndə görürəm ki, bu çarpışıb-vuruşma nəsillərin yox, insanın özüylə savaşıdı [1, 160] .

Əsər ikihissəli traqikomik misteriya kimi təqdim olunan bu pyesdə sovet Stalinin xofu hiss olunur. Eləcə də generalın oğul nəvəsinin keçirdiyi fikirlər, tüfeyli həyat tərzi, bu müasir dövrün halqasının təqdimidir.

Sovet dövrünün nostalgiyası ilə yaşayan general bu zamana öyrəşə bilmir. Hələ də sovet rejiminin yaşam tərzinin qoxusunu hiss edir. O dövrdən uzaqlaşa bilmir. Sevgilisini, “Krasnaya Moskva” ətrini, sevgisinin gələcəyi günü səbirsizliklə gözləyir. Öz dövründə söz sahibi olan generalın bu zamanla ayaqlaşa bilməməsidir.

Pyesin maraqlı cəhəti həyatda real olan və real olmayan hadisələrin bir-biri ilə qarşılaşmasıdır. Burada davada ölən əsgərin hər gün gəlib şeypurlu generalı yuxudan oyadan şeypurçu, fərari əsgər, cəllad, sevgili obrazlar dünəndən gələn ruhlardır elə bil.

Bu günün obrazları oğul nəvə, qonşu, qız nəvə, polislər, qisasçı qadın bunlar hər biri real, bu günün qəhrəmanlarıdı. Vaqif Səmədoğlunun sənətkarlığı iki zamanın insanlarını bir zaman kəsiyində qarşılaşdırmaqdır.

Əsərdə əsas hadisələr oğul nəvənin simasında açılır. Oğul nəvənin qonşusu sərxoş biri idi. Dünyanın ən çətin məsələlərinin müzakirəsi sanki bu iki əyyaşın nitqində həll olunacaq. Əsəri oxuduqca oğul nəvənin miskin həyatı cəmiyyətin çürümüş cəhətlərini göstərir. Oğul nəvə babasının ölümünü gözləyir. Evin hmısı onun adına keçsin. Əslində general oğul nəvəyə hər ay pul verir dolanmağı üçün. Amma sevdiyi içki həyatı bütün gələcəyi şübhə altına alır.

Qız nəvəsi anasının lüstrü üçün canından keçməyə hazırdır. Bu obraz dünya malından ötrü hər cür həngamədən keçən insanları xarakterizə edir. Qız nəvəsinin sonsuz olması Vaqif

tərəfindən təsadüf qeyd edilməmişdir. Generalın keçmişdə törətdiyi mühitin gələcəkdə göstərici əyyaş oğul nəvə və sonsuz qız nəvədir. Onların gələcəyi olmayan nəsildir. İtməyə, silinməyə məhkumdurlar.

Burada qisasçı qadın surəti də maraqlı səhnələri aydınlaşdırır. Öz atasının qisasını almağa çalışan o qadın əslində represiya dövrünün qurbanlarının zəncirvari – silsilə şəklində olduğunu görür. Yəni satılan atalar, dayılar, əslində hansısa bir fərd axtarmaq düzgün deyildir. Generalın bütün sənədləri saxlaması, onun uzaqgörənliyinin əlaməti də demək olar. Saxlanılan bu sənədlər sorulacaq hesabatların göstəricisidi həmçinin.

Əsərdə hikmətli sözləri də dünyanı silkələyən ölüm, həyat, intihar haqqında fikirlər söyləyən cəllad obrazı əsərin məna yükünü daha da ağırlaşdıran surətdir. O cəllad ki, mütaliə edir və insan qanına əli bulaşmış biridir. Cəllad olsa da fərari əsgərin ölüm əmrini almadan öldürməyən bir cəlladdı.

Daha sonra özünü öldürməyən fərari əsgər hansı ki, nə bu dünyada, nə o dünyada özünə yer tapa bilmir. Öz ölümünü dil-dil arzulayır, istəyir. Əslində o cəllad da, fərari əsgər də, general da insandı. Səhvləri ilə insandı. Bu dünyada özlərinə yer tapa bilməyən, ruhlarının bəlkə rahat ola biləcəyi bir yer arzusundadırla.r.

Pyes maraqlı simvolik cəhətləri ilə də zəngindir. General öz sevgilisini gözləyir. Onun xəyalı ilə yaşayır. Heç şübhə yoxdur ki, o gəlməyəcək general əslində öz ölümünü gözləyir. İnsanı bu həyatdan qoparıb o biri dünyaya aparan ölümü nostalji illəri ilə görmək istəyir. Sevgilisi görkəmində ölüm mələyi gəlir. Xatirələr təzələnir və məqam yetişəndə nəvələrinin, polislərin hay-küyünə, şeypurçunun xahişinə baxmadan öz əhdinə çatır və özünü öldürür.

Generalın arzuladığı kimi Qız qalasında nar ağacı bitir, çiçək açır, nar gətirir.

Vaqif Səmədoğlunun pyeslərinin alt məqamlarsız təsəvvür etmək mümkün deyildir. İki zaman bu zamanın biri sovet rejimidir. Bu rejim çox qapıları bağlı qoydu. Düşünən, inkişaf edəcək beyinləri məhv etdi, nəsillərini kəsdi. Onlar haqqında yalnız yalnış məlumatlarla dolu qovluqlarda məlumat aldıq. General da sovet rejiminin qan-qadasından keçmiş, repressiya illərində cəmiyyətin, dövrün, hakimiyyətin qulluqçusu olmuşdur. O rejimdə qulluq edib. İstintaq aparıb, sürgünə göndərib, müharibədə iştirak edib. Sovet rejiminin qanlı zamanından sağ çıxan bir insandır. Bəlkə də dövrü üçün halal, zəhmətkeş, qanun tərəfdarı ola bilərdi. Amma bu dövrün insanı ola bilmir. Əslində bu dövrdə sovet adı yoxdu, sadəcə sovet rejimiin söküntülərindən kimsə yaşaya bilən, müstəqil cəmiyyətin keçmiş yamağı özünə yer tapa bilir. General isə yox.

İyrənc zamanın qalıqlarının xeyri bu dünyada olmayacaq. Necə ki, keçmişin qalıqları cəmiyyətdən getmədikcə, gələcək cəmiyyətin övladları içki düşkünü olacaq, bic-vələdüzzina olacaq, çirkin qandan törəyənlər məhv olmalıdı. Və ona görə də general vədənin yetişdiyini başa düşür və intihar edir.

Vaqif Səmədoğlu bu pyesin hansı məqsədlə yazıldığını insanlara çatdırmaq istəyir: "Pyes generalın intiharıyla bitir. O, müharibədə fərarilik eləmiş əsgərinə güllə atır, amma özünü öldürür. Əsərin ana fikri odur ki, günahı-günahla yumazlar. Pyesdə bir yer də var, cəllad özünü asır. Cəlladı edam eləyən haqq deyil. O da cəlladdı. Yer üzündə mütləq xeyir, mütləq şər yoxdu. Həyat var, xeyirlə şərin, iblislə mələyin qatışığı, çarpazlaşması, hərdən ayrılmağı, vuruşu var" [2, 8 ].

Vaqif Səmədoğlunun adıçəkilən pyesi ilk dəfə 1998-ci ildə Dövlət Gənclər Teatrında ilk premyerası olmuşdu. Tamaşa çox maraqla baxılmış və sevilmişdir. Teatrın bədii rəhbəri, rejissoru, baş rolun ifaçısı Hüseynağa Atakişiyev: "Tamaşa misteriyadı. İnsanı yaşadan amallar var. Generalın amalı təntənəli ölümü gözləməkdi. Əlli il sevgilisinin yollarına baxır. Axırda aydın olur ki, onun sevgilisi əzrayılmış... Vaqif əsəri yazanda dedi ki, general sənsən... Bəzi

məqamlarda general mənə yaxındı. Onun həyat fəlsəfi, ölümə baxışı, gənclik haqda fikirləri ..... yaşam tərzi [2, 8 ] .

Səhnə həyatı yaşayan bu pyes tənqidçilərin xoşuna gəldi. "Tamaşaçı gülürdü. Lap "Bəxt üzüyü"ndəki kimi. Hər kəlmə, hər deyim gülüş tufanı qoparırdı. Bu gülməli mətləbləri qələm-kağıza yükləyən Vaqif Səmədoğlunun, rejissor, general rolunu ifa edən Hüseynağa Atakişiyevin notları tamaşanın ritminə uyğun nizamlayan bəstəkar Mobil Babayevin tamaşanın ağırlığını çiynində daşıyan bütün qalan adamların ən böyük zəhmət haqqı tamaşaçı gülüşü, tamaşaçı alqışı idi....

Amma gülüşdən oyana daha ciddi məktəblər dayanmışdı. Bu mətləblərin haqq-hesabını tarixdən başqa kimsə ödəyə bilməz.... [4, 12 ] .

Vaqif Səmədoğlunun bu pyesi haqda yazıçı Anarın da maraqlı fikirləri vardır. "Generalın son əmri" özünün polifonik zənginliyi ilə seçilir. Bu pyes həm güclü sarkazma malikdir, həm absurd, həm sürrealist teatrın ünsürlərini özündə daşıyan, həm də sırf realist personajlarla xəyalı iştirakçıların ünsiyyətini əks etdirən, diriykən ölənləri və ölüykən diriləri səhnəyə gətirən unikal əsərdir" [3, 60 ] .

Təsadüfi deyildir ki, Vaqif Səmədoğlu məhz bu pyesin ikinci dəfə səhnə həyatını görmək istədi. Bu pyesin rejissorluğunu Ramiz Həsənoğlunun ixtiyarına verdi: "Bu əsər böyük bir dünyaymış. Vaqifin sənətinin sirri də bundadı ki, üstdən yazmır, onun əsərləri çoxqatlıdı. Bu qatlar başladı işləməyə və mən yavaş-yavaş aludə oldum" [3, 62 ] .

Tamaşanın istedadlı aktyor truppası öz peşələrini layiqincə yerinə yetirdilər. Vaqif Səmədoğlu həmişə olduğu kimi bu dəfə də oxucunu və tamaşaçını zahirən güldürməyi, içdən ağladıb düşündürməyi bacardı.

"Yumurta" pyesi V. Səmədoğlunun digər pyeslərinə oxşar və fərqli xüsusiyyətləri ilə seçilən əsərdir. Pyes 2003-cü ildə yazılmışdır. Bir dəfə də tamaşaya qoyulmuşdur. Vaqif Səmədoğlunun dramaturgiyasının II cildində 2014-cü ildə çap olunmuşdur.

Əsər gülüş və yumorun müşayiəti ilə ölkədə cərəyan edən siyasi hadisələri özünə cəmləşdirir. Pyesin qısa olaraq mövzusu belədir. Hadisələrin gedişatında ər-arvan Şahin və durna surəti ilə qarşılaşırıq. Aydın olur ki, onların övladı olacaq. Həkim müayinəsi zamanı məlum olur ki, Şahin və durna bəşər tarixində ilk dəfə yumurta atası və anası olacaqlar. Bütün həngamələr də bundan sonra başlayır. Yumurta məsələsi artıq nəinki Azərbaycan, dünya üçün sensasiyon bir hadisə olur.

Yumurta bir simvoldur. Kiçik bir əlamət ilə pyesdə çox mətləblər üzə çıxır. Şahin və durnanın ailə bağlı cəmiyyətin xırda daha da qabardır. Pyesdə qonşu münasibəti, televiziya kanalları, jurnalistlər, siyasi partiyalar, müğənni olmaq istəyən gitaraçı oğlan, səfirliklrin olması cəmiyyətin aparıcı qüvvələrini göstərir.

Hər kəs öz mənfəsini güdür. Əsərdə Azərbaycanın sosial vəziyyətindəki çətinliklər, siyasi vəziyyətdəki təlatümlər, media cəbhəsində, qəzet və jurnallarda informasiya təlatümü, gitaralı gəncin simasında incəsənət sahəsindəki başlıqlar, cəmiyyətdə insanlar arasında münasibətlərin qazanc təbəqəsinə görə bölünməsi çılpaqlığı ilə simvolizə edilək canlandırılmışdır.

Yumurta hadisəsi Şahinin ac vaxtı bir reklam çxarxına baxması ilə aktuallıq qazanmağa başlayır. Maddi baxımdan ailə çətinliyi çəkir. Bu çətinliyin timsalında Şahinin baxdığı reklam carçı və mövcud olan real həqiqət vardır. Şahin "Sağlam yumurta"... bir həftədi evdə yumurta yoxdu... nə şağlamı, nə qeyri-sağlamı, nə də laxı.... yaxşıdır ki, dünən o qonşu deputatdan üç şirvan aldım [5, 235] .

Professor – tibb sahəsində olan simaların təcəssümüdür. Yumurta məsələsini qabardan hadisələri cığırından çıxaran bir qığılcım olur. Öz mənafeyi xətrinə şahin və Durnaya dəstək olan müdafiəyə qalxan yeganə obrazdır. Özünü tibb elmində ilk dəfə kəşf etdiyini düşünür. O

bu yeniliyin ona Nobel mükafatını qazanmağa kömək edən bir vasitə hesab edir.

Professorun hər şeyi danışmasından sonra Durna və Şahin həyatı dəyişir. İş işdən keçmişdir. Artıq nəinki Azərbaycan, dünya üçün sensasiya bir hadisə idi. Durna və Şahin bir anın içində məşhurlaşmışdı.

Şahingilin qapısına bu günə qədər onların qapısını döyməyən salam verməyi belə özlərinə ar görən, mənfəətpərəst, vəzifəpərəst qonşu Sona gəlir. Hər bir vəziyyətdən öz xeyirləri üçün məqsəd güdən tiplərlə qarşılaşırıq. Vəziyyətini, şan şöhrətini itirmək istəməyən insan kütləsi çoxdur, bu məmləkətdə. Bu amallarını həyata keçirmək üçün yaltaqlıq, iki üzlülük, yalandan insanın üzünə keçmə, nəyin bahasına olur-olsun hər cür mənəvi aşınmanı özünə rəva görə bilən surətidir. Sona istədiyi alınmadıqda belə haqsız bəd dua etməkdən belə çətinməyən insanın düşüncə geriliyinin nümunəsidir.

Dördüncü hakimiyyət adlandırılan mətbuat orqanları da ayaq üstədi. Pyesdə mövcud mətbuat orqanlarının ustalıqla, mükəmməl incəliklə simvolik adlarla adlandırılması gülüş doğurmaya bilmir. "Turan İnterneyşl", "Patriaomuerti qəzeti", "Azərbildinq nonsens" televiziya kompaniyası, "Hacıqabul Tayms qəzeti", "Jitse Baku", "Yesterdey" televiziyası, "Bakoy İndependent deylinyus" qəzeti, "Baku Tayms" qəzeti misaldır.

"Azərbildinq nonsens" televiziya kompozisiyasınınmüxbiri Qənirənin Durnanın yumurtalayan vaxtı çəkilişə gəlməsi komik bir vəziyyət yaradır. Şahindən müsahibə zamanı taleyini onsuzda qara bağ olan Qarabağın bir –iki kəlmə ilə efirdə ara söz kimi səslənməsi vəziyyəti aydınlaşdırılır.

Incəsənət aləmindəki hərc-mərcliyin gitaralı oğlanın simasında görsənir. Hər yerindən duran musiqi təhsili olmadan, bayağı, ara mahnıları ilə məhşurlaşmağa can atan insanlara varlığından söhbət gedir. Incəsənət sahəsindki hərc-mərclik təşkil elətdirmək var. Klip çəkdirmək var, günlərlə efiri zəbt etmək var deməkdir. Gitaralı oğlanın Durna və Şahindən klip çəkmək üçün pul istəməsi səhnəyə musiqidən, sənətdən anlayışı olmayan insanların simasını yaradır.

İmkansız, köməksiz bir qarının gəlib imdad diləməsi səhnəsi də təsirlidir. Nəfəsinin əməliyyatı üçün pulu olmadığıdan çarəsiz qalan nənə köməksizdir. Durna klinikanın həkimi cərrah Şərəfxanəki ilə söhbət edir və yumurta anası olan Durna qarının nəvəsinin əməliyyatının təmənnasız, klinikanın hesabına elətdirilməsinə nail olur. Pyesdə olan bu hadisə Azərbaycan səhiyyəsində olan on iki əvvəlki və bu günkü boşluqları göstərir.

Pyesdə siyasi partiyaların cəmiyyətin sosial həyatında nəkimi yer tutduğunu görmək mümkündür. Siyasi partiyalarda ad var, özü yox prinsipi ilə işləyən. əməllərin həyata keçirmək üçün Şahin və Durananın yumurtasını alət edirlər. "Demokratik xaos ppartiyasi" adı altında mövcud olan siyasi partiyanın nümunəsini görürük. Adından da göründüyü kimi siyasi həyatda hələ də özünə yer etməmiş demokratiyanın xaos özbaşına vəziyyətdə olduğunun şahidi oluruq. Cəmiyyətdə söz azadlığı deyilən anlayışlar ancaq partiya adlarında əksini tapır. Partiya rəhbəri Daday bəy əslində heç kimin tanımadığı özünə görə isə artıq yüksək vəzifə sahibidir. Partiya rəhbəri öz siyasi məqsədlərini Şahin və Durnaya Partiya üzvlərinin biletini onların icazə və istəyi olmadan verir. Həngamənin daha biri burada başlayır. Daday: Bacım, mən çox şadam ki, sən məhz bizim partiyamızın üzvü kimi yumurtlayacaqsan! Solmüh (cangüdən), aşağıdan o televiziya operatalarını çağır, bu tarixi ahdisələri lentə alsınlar! [5, 253 ]. Şahinin etirazından sonra Dadəy bəy cüngüdənləri ilə çıxıb getməli olur.

Aparıcı dövlətin Səfirinin Şahinlə dialoqu və eləcə də bu dialoqda Şahinin öz milli dəyərlərə verdiyi qiymət yumurtanın nəinki bir dövlətin, bütün dünyaya yumulmuş 72,5 milyon Azərbaycanlıya məxsus yumurta olduğunu göstərir.

Daday bəyin adamları Şahin və Durnanın etiraz etməsinə tuturlar. Əllərindəki plakatlarıa hücuma keçirlər, Yeganə pənah yeri olaraq Qobustan seçilir. Simvolik olaraq məskəninin

dünyada analoqu olmayan insan övladının yumurtalanması məsələsi ortaya qoyulur. Amma burda da onlara rahatlıq yoxdur.

Əsərin sonunda bütün bu onların Şahinin yuxusu olduğu aydın olur. Baş verən hadisələr yuxuda qalmışdır. Bəlkə də Şahinin yuxusu reallığın ən dərin qatıdır.

"Yumurta" pyesi cəmiyyətin siyasi təlatümlərin burulğanında olmasını göstərən məqamlarla doldudur. Hər hadisə digər bir sosial hadisənin tördicisidir. Əsər səhiyyə, incəsənət və mədəniyyət kütləvi informasiya vasitələri, mətbuat orqanları, siyasi partiyalar, dünya siyasətinin niyyəti, vəmiyyətin hadisələrə vətəndaş münasibəti, insanların mənəvi və həqiqətən ac olmasını bir yumurta ilə açılmasını görürük**.**

Şahinin yuxusu bildiyimiz hərc-mərcliyin yatmış kimi görnən amma hər an partlamağa hazır olan mürəkkəb proseslərin göstəricisi, cəmidir.

## ƏDƏBİYYAT

1.Babayeva-Vəkilova N.R. Şair və zaman / N.Vəkilova. – Bakı: – 2010.–319 s.
2.Bəylərqızı Ş. B. Generalın son əmrini Hüseynağa Atakişiyev verdi // Rezonans qəzeti. 1998, 23-26 may.– s.7
3.Rzayeva R. S. Ölümdən sonrakı əmr // – Bakı: Qobustan jurnalı, – 2014, №4,– s. 61-63
4.Soltan A. Ə. Babanın sevgilisi əzrayıl imiş // Azadlıq qəzeti. 1998, – 27 may. – s. 12
5.Vəkilov V. S. Dramaturgiya. [2 cilddə] / V.Səmədoğlu. – Bakı: Şərq-Qərb, – c.2. – 2014.– 277 s.
6.Yusifli C. Ə. Gülüş və dünyanın sonu / C.Yusifli. – Bakı: Elm, –1997. –136 s.

***Azərbaycan Dillər Universitetinin**
**doktorantı**
**E-mail:nigar_sh@gmail.com***

**Nigar Shahkaramova**

## "GENEREAL'S WORD WITH TIME" AND " EGG'S AWAKENIG"

Vagif Samadoglu has brought a new breath to the drama. The outher has tried to show the Azerbaijan truth as they have. We have witnessed the events taking place under a different view. In the play of "General's last command" hidden crimes in the dark pages of history, punishment for sins committed after a few decades are reflected. Disasters caused by the disasters eventually corrupt amd exhaust society as well.

Although "Egg" play decorated with comic elements, but there are a lot of things to regret. Society and people should always think about happening in the play. Indifference made each of us to ignore what is going on. Its result and aftereffects will always be worried society and make them to be desperate.

**Keywords:** *Vagif Samadoglu, general, life, fear, awakening, egg*

**Нигяр Шахкарамова**

**“СЛОВО ГЕНЕРАЛА СО ВРЕМЕНЕМ” И “ ПРОБУЖДЕНИЕ ЯЙЦА”**

Вагиф Самедоглы вдохнул новую жизнь в драматургию со своей пьесой. Автор старался показать реальность Азербайджана.

Мы стали свидетелями событий, которые имени место в рамках иной точки зрения. В пьесе “Последнего командования генерала” скрытые преступления на темных страницах истории отражение наказания за грехи, совершенные через несколько декад. Ведствия, вызванные катастрофами, в конечном итоге развращают и истощают общество.

Хотя, пьес “Яйцо” играет украшенным шуточным елементами, но есть о чем пожалеть. Общество и люди всегда должны думать о том, что происходит в спектакле.

Безраличие заставило каждого из нас игнорировать то, что происходить. Его результат и последствия всегда будут беспокоит общество и заставлять его быть в отчаянии.

**Ключевые слова:** *Вагиф Самедоглы, генерал, жизн, страх, пробуждение,яйцо*

*(Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 07.01.2021**
**Son variant 03.03.2021**